“Cresent-Beach” otelində keçiriləcək olimpiadada MDB və Baltikyanı ölkələrin, həmçinin, azərbaycanlı şagirdlərin geniş tərkibdə iştirakı nəzərdə tutulur. Mendeleyev Olimpiadasına Bolqarıstan, Rumıniya, Makedoniya və digər bir sıra ölkələrin nümayəndələrinin də qatılacağı gözlənilir. Olimpiadanın keçirilməsi üçün Azərbaycan hökuməti tərəfindən 220 750 manat vəsaitin ayrılması nəzərdə tutulur.

Məlumat üçün bildirək ki, son 10 ildə Beynəlxalq Mendeleyev Olimpiadası bir çox ölkələrdə keçirilib. Onların arasında Rusiya Federasiyası, Qazaxıstan, Moldova, Tacikistan, Ermənistan, Belorus, Özbəkistan və Türkmənistan da var. 2000-ci ildə isə 34-cü Beynəlxalq Mendeleyev olimpiadası Azərbaycanda keçirilib. Mendeleyev Olimpiadasının dəfələrlə iştirakçısı olmuş Azərbaycan məktəblilərinin də əksəriyyətinin adı qaliblər sırasındadır. Onların bir çoxu təhsillərini Moskva Dövlət Universitetində davam etdirir, bəziləri isə artıq bu nüfuzlu təhsil ocağının məzunları olublar.